# Qranit sifətin təbəssümü və ya Əjdər Olun "Beş-on şeir"i



Valeh BAHADUROĞLU

1980-ci illər idi. İndiki Gəncə Dövlət Unversitetinin biologiya fakültəsində oxuyurdum. Bizimlə (həmkəndlilərim Qəşəm, Sərvazla) Əliyar adında bir oğlan da yoldaşlıq eləyirdi. Səhv eləmirəmsə, o vaxtkı Əlibayramlıdan, ya da Salyandan olmalıydı. Məsələ burasındaydı ki, biz Əliyarın xatirini çox istəyirdik. Ona görə yox ki, Əliyarın yaxşı pulu varıydı, tez-tez qonaqlıq verirdi, ya bizi müəyyən problemlərdən qoruyurdu. Yox bunların heç biri yoxuydu. Sadəcə olaraq biz onu ona görə çox istəyirdik ki, o, Əjdər Cəbiyevin qohumuydu. Dayıoğlu-bibioğlu idilər. Əjdər Cəbiyev bizdən bir neçə il qabaq o vaxtkı KDPİ-nin (indiki GDU) ədəbiyyat fakültəsini qurtarmışdır. Bu illər ərzində Əjdər müəllim öz sözünü demişdi. Özünü bir şair kimi təsdiq eləmişdi. Tələbələr, müəllimlər, şəhər sakinləri onun şeirlərini əzbər deyirdilər, haqqında xoş sözlər danışırdılar. Biz də bütün bunları məmnunluqla qəbul eləyir, Əjdər müəllimə olan hisslərimizi təbii ki, Əliyarla bölüşürdük. Xüsusilə də sonralar qohum olduğum Daşkəsənli Saleh Qurbanov onu bizə daha çox sevdirmişdi.

Olun hekayəmə xüsusi dəyər verməsi mənim üçün daha önəmliydi. O hekayə müxtəlif qəzet və jurnallarda çap olundu. Oxucular tərəfindən rəğbətlə qarşılandığını da hiss elədim.

16-17 il qabaq Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda kiminsə yaradıcılıq gecəsi keçirilirdi. Əjdər müəllim tədbirin aparıcısı idi. Tədbirin sonunda o, hamı ilə görüşüb ayrıldıqdan sonra mənə yaxşılaşdı. Sonra da oturub bu bir hovurun günlərlə şirinliyində bulunasan. Açığı mən heç bilmirəm ki, bir hovur nə qədərdir. Bir ildimi, bir saatdımı, ya bir andımı. Onu bilirəm ki, bir hovur əlini cibinə qoyub dünyanın dərd-sərindən uzaq ola bilərsən. Ya elə bir hovur zaman kəsiyində əlini qoynuna qoyub aranı dağa, dağı arana aparmaq olar. Sonra da dodaqların qaysağı, könüllərin təşnəsi, tutiyə nəğmələrin Anadil oxuları başlayır.



deyən Əjdər müəllim həyatda baş verən bütün təbiət hadisələrindən biri də poeziyadır, deyir.

"Ənənəvi olaraq şairlər məkanı sayılmayan, təbiəti yavan, meşəsiz, dağsız, yaşılsız torpağı günəşin qovurduğu Muğanda doğulan"( professor R. Hüseynov) Əjdər Olun şeirləri elə olduğu kimidir, rəngsiz, boyasız. Bəlkə də bu bir qeyri- təbiət hadisəsidir ki, xarici görünüşü qranitə bənzəyən bu adamın batini gülüstandır.

Xəsis cizgilər, boyu qısa, sayı az misralarla əbədiyyətə söz ömrü, bir ilahi kədər eşqi bağışlamaq Əjdər Olun alnına yazılıbmış.

*Könlümü vuruşa*
*Çıxarmışam mən.*
*Səf-səf, qoşun-qoşun kədərlə, qəmlə.*
*Mənim ürəyimin hər döyüntüsü,*
*təzə bir hücumdur,*
*yeni bir həmlə.*

Onu da deyim ki, mənim üçün tərcümeyi-hal yazmaq çətin olub həmişə. Mənim üçün maraqlı olub ki, insanın tərcümeyi-halı nədən, nə vaxtdan başlayır. Anadan olduğu gündən, aydan, ildənmi, ya elə həyatı, ətrafı, özünü dərk etməkdənmi? -Əjdər Olun poetik tərcümeyi-halı isə daha duyğuludur: "Dünyaya gəlişimdən nə dərəcədə xəbərdaramsa, poeziyaya gəlişimdən elə xəbərdaram. Necə deyərlər bir də gözümü açıb gördüm ki, ədəbi mühitdəyəm. Elə ilk şeir mən özüməm ki, bu dünyaya gəlmişəm".

Və elə ilk şeir kimi dünyaya gələn bu insan özünə igid Əjdər dedi; inamına, imanına OL dedi, Əjdər OL oldu.

*Sevən ki, eşqi yolunda,*
*Ölmürsə neynirsən onu?!*
*Gedib o dünyanı görüb,*
*Gəlmirsə neynirsən onu?!*

*Ürəyini al əlinə,*
*Qoy düşməsin kal əlinə.*
*Toxunanda gül əlinə,*
*Bilmirsə neynirsən onu.*

*Düşsən şərə, qalmaqala,*
*Xəbər göndər Əjdər Ola.*
*Əjdər gərək Əjdər ola,*
*Olmursa neynirsən onu?!*

"Mənə canlı söz qədər heç nə toxtaqlıq verməz" deyən şairin "Beş-on şeir"indən "Min bir şeir"inə qədər arzularıyla ürəyimdən keçənləri qələmə aldığım bu yazını elə öz fikirləriylə də tamamlamaq niyyətindəyəm. "Həmişə istəmişəm ki, adamlar günahlarını, əzablarını, kimliklərini etiraf edib yüngülləşsinlər, durulsunlar. Ancaq neyniyəsən, çoxunun danışdıqları etirafa qədər olanlardı."

Özüm də etiraf edim ki, 2009-cu ildə elədiyim bu qeydlərin necə var eləcə də çap olunmasını Dayandur Sevgindən xahiş etdim.

Beləcə vaxt ötdü. Təhsilimi başa vurdum. Əliyar da institutu qurtardı. Di gəl ki, o vaxtdan Əliyarı görmədim, "itirdim". Əvəzində haqqında xoş təəssüratla düşündüyüm Əjdər müəllimlə rastlaşdım-"tapdım". Onda Əjdər, Əjdər Oluydu. Əjdər OL ünvanlı bir ədəbi yaradıcılıq buğum-buğum boy tutmuşdu. Əjdər poeziyasına Yaradandan "OL"möhürü vurulmuşdu. Artıq Əjdər Ol yaradıcılığında özüydü, öz sözüydü. Yanğısıydı, sevgisiydi, haqsızlığa barışmazlığıydı. Bir də sevdikləri üçün ürəyinin başında qoruyub saxladığı təbəssümüydü.

Bir vaxt "Ulduz", "Azərbaycan" jurnallarının redaksiyası köhnə "Baki soveti"metrosu ilə üzbəüz binanın beşinci mərtəbəsində yerləşirdi. Bir gün "Ulduz" jurnalı üçün yazı aparmışdım. Pilləkənləri piyada qalxıb, köhnə taxta döşəməli koridorla gedib sola dönməliydim. Bir otağın qapısından keçəndə içəridə oturan məni özünə çəkdi. O idi. Əjdər müəllim otaqda tək oturub nə isə yazırdı. İçəri girdim, salam verib, necəsiniz dedim. İlk baxışda qranit təsiri bağışlayan sifətində oynayan təbəssümü görüb, ürəkləndim. Hekayələrimdən ikisini qarşısına qoydum. Heç nə demədən birini axıracan oxudu. Başını qaldırıb üzümə baxdı. Əvvəl təbrik eləyirəm dedi. Sonra da əlavə elədi; Birbaşa gedərsən "Gənclik" jurnalına. Bu yazını verərsən Hüseynə. Və deyərsən ki, Əjdər müəllim göndərdi.

Mən getdim. Qış fəsli idi. Deyəsən axşama düşmüşdüm. Redaksiyada heç kim yox idi. Bir kəsi tapa bilmədiyimə görə təəssüflənmədim də. Çünki Əjdər Mənimlə də görüşüb, əhvalımı soruşdu. Xahiş elədi ki, "Ulduza" gedən yolu ona göstərim. Biz üçüncü mərtəbədən redaksiyalara qalxan pilləkənlərə qədər gəldik. Pilləkənlərin yarısında ani olaraq dayandı. Daha burdan belə özüm gedərəm, sən əziyyət çəkmə, dedi. Pencəyimin cibinə nəsə qoyduğunu hiss elədim. Ustufca əlimi sıxdı, qardaş payıdır. Mən bir an duruxdum. O isə "Ulduz"a gedən sərt pilləkənlərlə yuxarı qalxdı.

Məqsədim heç də bunları demək deyildi. Deyəcəyim həm də o idi ki, günəşin işığı bütün pəncərələrdən düşür-görünür. Mən İmişli adlı bir əyalətdə kasıbkarlığımı eləsəm də, mənəvi və ədəbi bir dünyayla dolu olan hücrəmin pəncərəsindən düşən işığa və təbəssümə isinmişəm həmişə. Və bir gün bu xıpxırda yazını yazmağıma da Əjdər Olun hücrəmin pəncərəsindən görünən qranit sifətinin təbəssümü, 15-20 ildən sonra yenidən vərəqlədiyim "Beş-on şeir"i səbəb oldu.

*Heç duydunmu bu dünyanın*
*Tamını olduğu kimi.*
*Tanıdınmı müdrikini,*
*Xamını olduğu kimi.*

*Sınadınmı lələsini,*
*Sürgününü, tələsini.*
*Çinarını, vələsini,*
*Şamını olduğu kimi.*

*Nə məşhər qur, nə qal elə,*
*Nə sinəni təbil elə.*
*Əjdər Olsan qəbul elə,*
*Hamını olduğu kimi.*

Bir hovur vaxt gərəkdir ki, Əjdər Olun şeirlərini oxuyasan. Işıq gözündən dan üzünəcən. Və adama elə gəlir ki, bu Anadil deyilən quşcuğaz elə işıq gözü yazılan şeirləri, nəğmələri oxuyur. İşıq gözündən sonra gələn toranlığa, qaş qaraltısına sancılan kəhkaşan əbədiliyini oxuyur. Əjdər Olun şeirləri də bu kəhkaşan əbədiliyini köksünə sıxaraq, dan üzü üfüqün yaxasından doğan günəş kimi bir hovurun içindəcə qarsalayır adamın dilini-dodağını.

*Zəng elədim xəbər verəm,*
*Yaşadığımı.*
*Bu günümün həsrətinə başladığımı.*

Mən hələ onun "Gələcəkdə yaşayıram", "Alın yazıma düzəliş", "İndidən" kitablarında toplanan şeirlərindən söz açmaq istəmirəm. Onun "Ölümlə zarafat"ından danışmıram hələ. Dilimizin saflığı, zənginliyi, real həyat həqiqətləri ilə dolu olan bu kitabda toplanan nəsr əsərləri müəllifin nə qədər istedadlı, nə qədər geniş yaradıcılıq imkanlarına malik olmasını isbatlayır.

Əjdər OL haqqında may 2005-ci il tarixli bir xüsusi buraxılışı neçə dəfə vərəqləmişəm-oxumuşam. Bu da məni ona- onun poeziyasına köynək-köynək yaxınlaşdırıb, doğmalaşdırıb. "Bir hovur vaxt gərəkdir ki, Əjdər Olun şeirlərini oxuyasan, sonra da oturub günlərlə bu bir hovurun şirinliyində bulunasan" sözləri də həmin buraxılışın səhifəsində yer almışdı. Sonra da Vaqif Yusiflinin, Ağacəfər Həsənlinin, Fikrət Sadığın ürək sözləri gəlirdi.

*Daha nə gizlədim.*
*Məni gözləyənlər bağışlasınlar.*
*Onları gözlədib, səni gözlədim*